**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**Q Ə R A R I**

**Bakı şəhəri** **№274/5** **11 mart 2016-cı il**

**Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2015-ci il 25 noyabr tarixli 269/4 saylı, qərarının icrası barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 1998-ci il 21 aprel tarixli 19/2 saylı qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasıın Auditorlar Palatası üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə TƏLİMAT”a, “Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 1998-ci il 21 aprel tarixli 19/2 saylı qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasıın Auditorlar Palatası üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə TƏLİMAT”a əlavə və dəyişikliklərin edilməsi haqqında” 2011-ci il 20 dekabr tarixli 226/4 saylı və “Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 1998-ci il 21 aprel tarixli 19/2 saylı qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Auditorlar Palatası üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə TƏLİMAT”a dəyişikliklərin edilməsi haqqında” 2012-ci il 16 noyabr tarixli 236/9 saylı Palata Şurasının qərarlarına müvafiq olaraq 2016-cı il 11 mart tarixinə hazırlanmış “Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2015-ci il 25 noyabr tarixli 269/4 saylı qərarının icrası barədə” Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimovun məruzəsini müzakirə edərək, Azərbaycan Respublikasının “Auditor xidməti haqqında” Qanununu, “Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında” Əsasnaməni, Azərbaycan Respublikası Auditorlar Palatası üzvlərinin hüquq və vəzifələri haqqında” Əsasnaməni rəhbər tutaraq Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2015-ci il 25 noyabr tarixli 269/4 saylı qərarının icrası barədə Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimovun məruzəsi nəzərə alınsın (əlavə olunur).

2. Bu günkü tarixədək 2015-ci ilin üzvlük haqqını tam məbləğdə ödəməyən aşağıdakı auditor təşkilatlarına və sərbəst auditorlara 2015-cı ilin üzvlük haqqlarını tam məbləğdə ödəmələri üçün 2016- cı il 01 may tarixədək vaxt verilsin:

-“Audit Grup” MMC - direktor Natiq Məmmədov, “İnter Audit” auditor təşkilatı - direktor Əlimuxtar Bağırov, “Azəri Audit” auditor firması - direktor Rafiq Namazəliyev, “AZ Audit” MMC - direktor Afiq İsrəfilov, “Balans Audit” MMC - direktor Əli Nəbiyev, “Kaspian Audit Kompani” MMC - direktor Əlibala Məhərrəmzadə, “Premier Audit və Konsalting” MMC -direktor Anar Hacızadə, “Baltik Kaspian Audit” MMC - direktor Samir Əsədullayev, “Audit Sevis” MMC - direktor Oleq Abdullayev, sərbəst auditorlar-Şirxan Gülməmmədov, Elnur İbrahimov, Tariyel Talıbov.

3. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) və Maliyyə və təsərrüfat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, bu qərarın icrası ilə bağlı müvafiq tədbirləri həyata keçirsinlər.

4. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**